*"Mənim həyatımda çox çətin dövrlər, anlar olubdur. Ancaq bununla yanaşı, tale çox vaxtlarda mənə kömək edibdir və mənim arzularımı yerinə yetiribdir...". Ulu öndər Heydər Əliyev söyləyirdi bu fikirləri. Bəs nə idi onun arzuları?*

*Hər dəfə xarici ölkələrə səfərləri zamanı orada yaşayan soydaşlarımızla görüşməyə böyük önəm verən ümummilli lider 1997-ci il avqustun 4-də Amerikadakı Azərbaycan Mədəniyyət Cəmiyyətinin nümayəndələrinin toplantısında çıxış edərək Moskvada yaşadığı illərdə üzləşdiyi çətinliklərdən, Azərbaycan üçün etdiklərindən danışır, xalqımızı "Kremlin sarayına qaldırdığını" və bununla fəxr etdiyini deyirdi: "...mənim ürəyim də, gecəm də, gündüzüm də Azərbaycanla oldu. Çünki Azərbaycan mənim doğma vətənim, torpağımdır..." söyləyirdi: "Mən 1993-cü ildə yenidən Bakıya gələndə dedim, ancaq ona görə gəlmişəm ki, xalqıma xidmət etmək istəyirəm. Mən bu xidməti etdim. Bu sözü ona görə deyirəm ki, bəs kənarda yaşayan hər bir azərbaycanlı Azərbaycan üçün nə edir?".*



# "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam"

Dahi şəxsiyyət azərbaycançılıq ideyasını xaricdə yaşayan soydaşlarımız arasında yaymaq üçün təməl daşını qoyur, hər bir azərbaycanlını müstəqil Azərbaycan dövlətinə xidmət etməyə səsləyir, dünyanın hər yerinə səpələnən soydaşlarımızı təşkilatlanmağa, birləşməyə çağırırdı.

Onun ən böyük arzusu Azərbaycanı azad, müstəqil görmək idi. Bu arzu isə çox-çox illər əvvəl respublikaya rəhbərliyə gəldiyi ilk günlərdən yaranmışdı. O günlərdən isə yarım əsrdən çox vaxt keçir. 1969-cu il 14 iyul. Məhz həmin tarixdə Azərbaycan KP MK-nın iyul plenumunda Heydər Əliyev birinci katib seçildi və bununla da SSRİ-nin geridə qalmış respublikalarından biri olan Azərbaycanın həyatında dönüş yarandı, yeni dövr başladı. Ulu öndər elə o dövrlərdə respublikaya rəhbərlik edərkən böyük uzaqgörənlik nümayiş etdirdi. Həmin vaxt Azərbaycanda böyük iqtisadi potensial yaranmışdı. Yaşadığımız sovet rejiminin dəyişdirilməsinin mümkün olmadığına baxmayaraq, xalqına nə isə etməyə çalışırdı.





Ulu öndər 1969-cu ildə hakimiyyətə gəldiyi gündən son günədək eyni bir amala xidmət etdi. Onun gəlişindən az sonra qısa bir müddətdə iqtisadiyyatımız dirçəldi, mədəniyyətimiz yüksəldi, milli-mənəvi dəyərlərimizin dirçəlişi istiqamətində mühüm addımlar atıldı. Geridə qalmış Azərbaycan birincilər sırasına çıxdı və o dövrün ən yüksək mükafatlarına layiq görüldü. Keçici Qırmızı bayraqlar bir-birinin ardınca sıralandı.

Həmin dövrdə ümumittifaq miqyasında bir fenomen formalaşdı: Heydər Əliyev fenomeni... Artıq bunu hər kəs etiraf edir, istəyənlər sevinir, istəməyənlər paxıllıq, qısqanclıq hissilə alışıb-yanırdı. Nə yazıqlar ki, nahaqqın haqqı üstələdiyi bu dünyada ulu öndərimiz də haqsızlıqlardan qaça bilmədi. Lakin bu dahi insan özünün imkansız vaxtlarında belə Azərbaycanı düşündü. Qanlı Yanvar faciəsi ilə bağlı verdiyi kəskin bəyanatda hadisənin səbəbkarlarının məsuliyyətə cəlb olunmasını tələb etdi, belə bir ölkənin dağılmasının labüdlüyünü cəsarətlə söylədi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin binası üzərində üçrəngli bayrağımızın dalğalandırılması suverenliyimizin qazanılması istiqamətində atılan ilk addım oldu.

Azərbaycanı sevir, onun müstəqilliyi ilə fəxr edirdi bu böyük insan. Hər bir rəsmi səfərdə dalğalanan üçrəngli bayrağımız, səslənən himnimiz ona qürur gətirirdi. Zəngin mədəniyyətimiz, ədəbiyyatımız, elmimizlə öyünür, bütün bəşəriyyəti, bəşər tarixini zənginləşdirən əsərlərin müəlliflərinin adlarını həmişə hər yerdə iftixarla çəkirdi:

***"El bilir ki, sən mənimsən,***
***Yurdum, yuvam, məskənimsən!***
***Anam, doğma Vətənimsən!***
***Ayrılarmı könül candan?***
***Azərbaycan! Azərbaycan!***

Səməd Vurğunun "Azərbaycan" şeiri dillərdə əzbər olubdur. Bilirsiniz, o qısa sözlərdə o qədər dərin məna var ki, həmin sözləri hər bir insan dilinə gətirib təkrar edərkən öz xalqına, ölkəsinə bir daha öz məhəbbətini, sevgisini, sədaqətini ifadə edir...".

Bu məşhur misralar, bu dəyərli fikirlər təpədən-dırnağadək Azərbaycan ruhuna köklənən, onu canı qədər sevən bir insanın dilində səslənmişdi 1997-ci il martın 7-də Respublika Sarayında Xalq şairi Səməd Vurğunun 90 illik yubileyinə həsr edilmiş gecədə. İllər sonra həmin salonda söyləmişdi: "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam".

Ulu öndərin bəxtinə hələ gənc yaşlarından yazılmışdı xalqına xidmət etmək missiyası və həyatının sonuna qədər də bu işi davam etdirdi, xüsusən də Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ulu öndər xalqına daha çox gərəkli oldu.

Bəli, müstəqillik bizim üçün böyük nemət idi və onu qoruyub saxlamaq lazım gəlirdi. Bu isə asan məsələ deyildi. Hər şeydən öncə ona görə ki, keçmiş Sovetlər İttifaqına daxil olmuş və müstəqillik əldə etmiş digər respublikalardan fərqli olaraq Azərbaycan Ermənistan tərəfindən müharibəyə cəlb olunmuş, torpaqlarının 20 faizini itirmiş, bir milyondan artıq sakini qaçqın və məcburi köçkünə çevrilmiş, yurd-yuvasından perik düşmüşdü. Ancaq nə qədər çətin olsa da bu tarixi şansı əldən verməmək üçün Tanrı Azərbaycanın taleyini təkrar bir vaxtlar, 14 il respublikaya rəhbərlik etmiş, 5 il keçmiş Sovet İttifaqının rəhbərlərindən biri olmuş və sonra haqsızlıqlarla baş-başa qalmış ulu öndərimizə etibar etdi: "Əsrlər boyu gah onun himayəsi altında olmağımız, gah bunun müstəmləkəsi olmağımız daha bəsdir! Bundan sonra belə olmayacaqdır!" - deyən ümummilli lider böyük çətinliklərlə ayaq üstə duran ölkəsini dağılmağa imkan vermədi, müstəqilliyimizin əbədi, daimi olması üçün fədakarlıq göstərdi.

Azərbaycanlı olmağı ilə fəxr edir, bu fəxarət hissilə də doğma dilini də gözəl bilir, onun qorunub saxlanması, inkişaf etdirilməsi üçün tədbirlər görürdü. Xalqını sevdi, bu sevgi ilə də ömrünü, şüurlu həyatını ona, Azərbaycan dövlətçiliyinə həsr etdi. Bu xalqın tale yükünü çiyinlərində daşıdı, onun azadlığa, xoşbəxtliyə qovuşması uğrunda mübarizə apardı, Azərbaycanı bir dövlət kimi zamanın ağır sınaqlarından çıxararaq özü də dünya tarixində bir lider kimi tanındı.

Heydər Əliyev dünyaya xalqına xidmət etmək üçün gəlmişdi. Xalq da onu sevir, ona inanır, taleyinin ən çətin məqamlarında ona üz tuturdu. Onun təkrar hakimiyyətə gəlişi də xalqın istəyi, təkidilə oldu. Xalq onu hakimiyyətə gətirdi, onu çətin anlarda qorudu, arxasında durdu. "Xalq-Heydər" birliyi belə yarandı: "Heydər xalqım dedi, xalq Heydər söylədi".

Bu gün də ulu öndər uğurlarımızın zirvəsində dayanır. Arzuları çin olduqca, vəsiyyətləri yerinə yetdikcə, üçrəngli bayrağımız bu məmləkətin hər bölgəsində qürurla dalğalandıqca ruhu Azərbaycanın başı üzərində rahat dolaşır.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**